# AZƏRBAYCANDA KƏND ƏHALİSİ ÜÇÜN ƏLAVƏ GƏLİR MƏNBƏYİ KİMİ AQROTURİZMİN İNKİŞAFI

*https://doi.org/10.30546/2706-7858.2026.1.238*

**UOT**: 379.85

**Xülasə.** *Aqroturizm sahəsi bütün dünyada inkişaf etməkdədir. İqtisadiyyatın digər sahələrində olduğu kimi, Azərbaycan da bu sahədə heç də geri qalmır, ölkədə aqroturizmin inkişaf etdirilməsinə önəm verir. Məqalədə "aqroturizm" anlayışı haqqında məlumat verilmiş, dünya ölkələrinin aqroturizm təcrübəsinə diqqət yetirilmiş və bu sahənin kənd əhalisinə verdiyi əlavə stimullardan bəhs edilmişdir.*

***Açar sözlər:*** *aqroturizm, kənd yerləri, kənd əhalisi, orqanik ferma, ekskursiya, piknik.*
***Keywords:*** *agrotourism, rural areas, rural population, organic farm, excursion, picnic.*
***Ключевые слова:*** *агротуризм, сельские территории, сельское население, органическая ферма, экскурсия, пикник.*

Aqroturizm kənd yerlərində və fermalarda turistlərin dincəlməsinin təşkili və həyata keçirilməsidir. Bu zaman turistlərə kənd həyatı ilə tanış olmağa, kənd təsərrüfatı işlərində iştirak etməyə, kənd mətbəxindən dadmağa və təbiətdə dincəlməyə imkan verilir. Turizm məhsulunun istehsalında kənd yerlərinin aqrar, təbii, mədəni-tarixi və digər resurslarının kompleks istifadəsini izah edən anlayışların müəyyənləşdirilməsi üçün "aqroturizm" terminindən istifadə olunur [1]. Bu turizm növü passiv istirahət (gəzinti, müşahidə və s.), aktiv istirahət isə (məhsul yığımı, heyvanlara qulluq və s.) şəklində də təşkil oluna bilər. Bu zaman qastronomik, mədəni-etnoqrafik və önəmli hadisələrin baş verdiyi yerlərə turlar təşkil olunur və belə tədbirlər kənd yerlərinin daha da inkişaf etməsinə səbəb olur.

*"Aqroturizm"* nisbətən yeni anlayışdır və birmənalı tərifi olmamasına baxmayaraq hesab edilir ki, aqroturizm kənd yerlərində turizmin növlərindən biridir, lakin onun sinonimi deyil. Aqroturizm turizmin müstəqil bir növü kimi seçilir və ev heyvanlarına qulluq, yerli mətbəxlə, kənd həyatı ilə tanışlıq, müxtəlif regionların adət-ənənələri ilə tanışlıq, kənd yerlərində gəzinti və pikniklərin təşkili kimi işlərlə boş vaxtın keçirilməsini nəzərdə tutur [3].

**Material və metodlar**

Aqroturizm zəngin tarixə malikdir. Avropada aqroturizm 200 il əvvəl yaranmışdır. Lakin bir sahə kimi sistemli şəkildə 1850-ci ildən inkişaf etməyə başlamışdır. Bu zaman ilk dəfə Fransada kənd yerlərində turistlərin yerləşdirilməsi üçün qonaq evləri birləşdirilmişdir. Almaniyada isə hələ də aqroturizmi ifadə edən vahid termin yoxdur, regiondan asılı olaraq onun mənası dəyişə bilər. Bu ölkədə aqroturizm xidmətləri əsasən kiçik ailə təsərrüfatlarında təqdim olunur, bəzi regionlarda isə fermerlə birgə iş formasını da alır. Bu zaman turistin fermada işlədiyinə görə ona yemək və qalmağa yer pulsuz verilir. Bu model Avropanın digər ölkələrində də məşhur olmuş, hətta "Orqanik fermalarda könüllü işçilər" adı altında ayrıca bir istiqamət kimi rəsmiləşdirilmişdir.

Avropa İttifaqı ölkələrində son 15 ildə aqroturizm çox məşhur olmuşdur. Bu istirahət növü yay tətilləri zamanı tələbələr arasında çox bəyənilir. Turist tələbələr fermer təsərrüfatlarında işləmələrinə görə pulsuz qalmağa yer və yeməklə təmin olunurlar. ABŞ və Aİ-da tələbələrə dəstək olmaq üçün "Könüllülər fermalarda" adlı bir sıra proqramlar vardır. Hazırda 42 ölkə bu proqramlara qoşulmuşdur. Avropa ölkələrində aqrar turizmin əsas inkişaf vektoru müəyyən olunmuşdur. Məsələn, ABŞ tələbələri İngiltərə, Fransa, İtaliya fermalarına fəhlə kimi işə düzəlirlər. Bu zaman onlar üçün Avropa ölkələrinin yerli etnoqrafiyasını, kulinariyasını, adət-ənənələrini öyrənmək üçün gözəl imkanlar yaranır. Avropada aqroturizmin liderləri kimi, Fransanın Provans, İtaliyanın Toskana, İspaniyanın Andalusiya kimi əya-

lətləri çıxış edir. Avropada ənənəvi üzümçülük və şərabçılıq mərkəzləri arasında ildən-ilə tələbə axınları uğrunda kəskin rəqabət mübarizəsi artır. Bu mübarizəyə Macarıstan, Türkiyə, Xorvatiya, Çexiya kimi ölkələr də qoşulur. Bizim ölkəmizdə də tələbələr arasında bu turizm növünə maraq böyükdür. Bu baxımdan Elm və Təhsil Nazirliyi bu istiqamətdə Orta Asiya ölkələri, Türkiyə ilə tələbə mübadiləsi proqramlarını işləyib hazırlaması yaxşı olardı. Fikrimizcə, mövsüm zamanı belə proqramlar ölkəmizə turist axınını daha da artırardı. Aqroturizmin vətəni sayılan İtaliyada onlarla hotel, ferma, şərabçılıq təsərrüfatları, restoran və kafelər bütün dünyada ingilis dilində danışan və aqroturizm vasitəsilə ölkəni tanımaq istəyən könüllü tələbələrin axtarışına çıxmışdır [2].

Dünya təcrübəsi göstərir ki, aqroturizmin inkişafı həm sosial baxımdan, həm də iqtisadi baxımdan səmərəli ola bilər [2]. Bu gün Azərbaycanda da aqroturizm aktiv inkişaf edir və dincəlməyin bu forması ilə tanış olmaq istəyən turistlər üçün bir neçə istirahət variantı təklif olunur. Azərbaycanda aqroturizm turizmin inkişafına dair daha böyük bir strategiyanın bir hissəsi kimi inkişaf edir.

Azərbaycanda aqroturizm 2004–2008-ci illərdən inkişaf etməyə başlamışdır. Bu zaman kənd evlərinin və ya çox böyük olmayan ailə pansionatlarının bazasında aqroturizmin infrastrukturu formalaşmağa başlamışdır. O dövrdə Dünya Bankının maliyyə dəstəyi ilə Şəki-Zaqatala regionunda turizm komponentləri olan “Milli irsin qorunması” adlı tarixi-etnoqrafik istiqamətli layihə reallaşdırılmışdır. Eyni layihələr cənub regionunda – Lənkəran, Astara, Masallı, Lerik habelə İsmayıllı, Qəbələ, Qusar rayonlarının dağ kəndlərində də reallaşdırılmışdır. Sonrakı illərdə Beynəlxalq Donor Təşkilatlarının dəstəyi ilə ev şəraitində mehmanxana işinin təşkilinin əsaslarının tədrisi üzrə müxtəlif treninqlər və kurslar keçirilərək aqrar turizmin inkişafı üzrə ixtisaslaşmış təşkilatlar yaradılırdı. Bu tədbirlər xarici turistlər arasında çox məşhur olmuşdur. Onlar xalis kənd həyatına baş vurmaq üçün pul xərcləməyə hazır idilər. Sonralar ev kirayəsində çevik qiymət siyasəti, bilavasitə istehsalçıdan ekoloji baxımdan təmiz qida məhsulları almaq və gözəl təbiətə çıxış imkanları olan (Bakı, Gəncə Sumqayıt) yerli istehlakçıları da buraya cəlb etdilər.

Azərbaycanda aqrar turizmə dəstək bu istiqamətdə çalışan dövlət strukturlarının işinin önəmli sahəsi, habelə “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununun vacib istiqaməti kimi qəbul olunmuşdur. Son bir neçə ildə bu işə yeni təkan verilmişdir. Belə ki, Aİ Azərbaycanda aqroturizmin inkişafına dair irimiqyaslı layihə reallaşdırır. Aqroturizmin geniş inkişaf etdiyi Avropa İttifaqı ölkələrində bu sahədə olan xidmətlərə tələb 60% artmış və onlar Azərbaycandan olan həmkarları ilə təcrübələrini bölüşürlər ki, ölkənin aqrar regionlarının inkişafı üçün daha əlverişli olan aqroturizmin inkişaf potensialı barədə daha çox öyrənməyə imkanları olsun. Bu da əyalətdə yaşayan cavanları kənddə qalmağa stimullaşdıracaqdır. Hazırda Aİ Azərbaycanda aqrar sənaye sahəsinin inkişaf etdirilməsi üzrə layihələrə 40 milyon avro ayırmış və bu vəsaitlərin bir hissəsi “Agri-Vision” layihəsinin reallaşdırılmasına istiqamətləndirilmişdir. Bu layihə şimal-qərb regionunda aqroturizmin inkişaf strategiyalarının təqdim olunması üçün platformadır. Bundan başqa, Aİ və Azərbaycan Turizm Bürosunun dəstəyi ilə 2018–2021-ci illərdə Şamaxı, İsmayıllı, Qəbələ, Şəki və Qaxı əhatə edən aqroturizmin müxtəlif sahələrinin inkişafına, yerli adət-ənənələrin, milli-mədəni irsin qorunub saxlanılmasına zəmin yaradan “Slow Food Travel” pilot layihəsi reallaşdırılmışdır.

Ölkədə aqroturizmin inkişafını təmin edəcək qanunvericilik bazasına gəldikdə isə bu sahədə xüsusi aqroturizm haqqında qanun olmasa da, bu fəaliyyət növü müxtəlif qanunvericilik aktları ilə tənzimlənir. Aqroturizm kənd təsərrüfatının turizm sahələri ilə birləşməsi vacib olduğu üçün bu sahələrə aid olan qanunvericilik aktları aqroturizmə də təsir göstərir. Bunlara torpaqdan istifadə, heyvandarlıq, bitkiçilik və s. məsələləri tənzimləyən kənd təsərrüfatı ilə bağlı qanunlar, turizm sahəsini tənzimləyən turizm haqqında qanun və başqa qanunvericilik aktları aiddir. Aqroturizm isə bu qanun və qanunvericilik aktları çərçivəsində fəaliyyət göstərir. Qeyd etdiyimiz kimi, aqroturizm üçün xüsusi qanunlar olmasa da, bu sahənin inkişaf etdirilməsi üçün dövlət proqramları tərtib olunmuşdur. Həmin proqramlar əsasında ölkədə aqroturizm müəssisələri yaradılır, aqroturizmin infrastrukturu inkişaf etdirilir.

Bu gün Azərbaycanda aqroturizmi inkişaf

etdirən müəssisələr fəaliyyət göstərir. Belə müəssisələrdən biri də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Agentlik ölkənin Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qax, Lənkəran, Astara kimi müxtəlif regionlarında turizm obyektlərinin yaradılmasını planlaşdırıb həyata keçirir. Bundan başqa, turistlərə qalmağı və kənd təsərrüfatı işləri ilə tanış olmağı təklif edən fermalar da vardır. Məsələn, belə bir ferma Şəkidə vardır ki, burada orqanik meyvə-tərəvəz yetişdirir və fermaya ekskursiyalar təşkil edilir, dincəlmək və restoran xidmətləri təklif edirlər. "Azerbaijan Travel" şirkəti aqroturizmlə bağlı fərdi turların təşkili üzrə xidmətlər də təklif edir.

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzdində "Şəhərdən kəndə" layihəsinə qoşulan fermerlərin və turizm sahəsində çalışan şirkətlərin iştirakı ilə Azərbaycanın Aqroturizm Assosiasiyası təsis olunmuşdur. Ümumiyyətlə, ölkədə aqroturizmin inkişafında "Şəhərdən kəndə" layihəsinin rolu böyükdür.

Aqroturizmin əsas istiqamətləri və fəaliyyət növləri kimi aşağıdakılar seçilir:

• ***Klassik aqroturizm*** *fermada və ya ekoloji evlərdə yaşamağı, kənd evinin gündəlik işlərində iştirak etməyi nəzərdə tutur.*

• ***Qastronomik aqroturizm*** *yerli məhsulların və yeməklərin istifadəsini, onların hazırlanması üzrə usta dərslərinin keçirilməsini nəzərdə tutur.*

• ***Mədəni-etnoqrafik aqroturizm*** *yerli əhalinin ənənələri, yaşayış, məişət qaydaları və tarixi ilə tanışlığı, festivallar və bayramlarda iştirakı nəzərdə tutur.*

• ***Aktiv dincəlmək*** *piyada, atla gəzintiləri, balıq tutmağı, giləmeyvə və göbələk yığmağı, bağçada və ya tarlada işləməyin təşkilindən ibarət olur.*

• ***Maarifləndirici aqroturizm*** *növü fermalarda ekskursiyaların istehsal prosesi ilə tanışlıq, heyvanların həyatının müşahidə edilməsi formasında təşkil olunur.*

Aqroturizmin həm turistlər, həm də kənd əhalisi üçün üstünlükləri vardır. Bu turizm növü turistlərə şəhər həyatından təbiətin qoynunda dincəlməyə, yeni təəssüratlar almağa və nəsə yeni bir şey öyrənməyə imkan verir. Kənd yerlərində isə yeni iş yerlərinin və gəlir mənbəyinin yaradılmasına, regionda infrastrukturun və iqtisadiyyatın inkişafına səbəb olur [4].

Aqroturizm kənd əhalisinə fəaliyyətini şaxələndirməyə imkan verir. Bu zaman turistlərə xidmət göstərilməsi hesabına yeni iş yerləri yaradılır, kənd əhalisinin məşğulluq səviyyəsi artır, onların gəlirləri təkcə kənd təsərrüfatı istehsalından asılı olmur, məhsul az olanda mövsümarası vaxtlarda əlavə gəlir götürə bilirlər. Aqroturizmin inkişafı kənd yerlərində infrastrukturun inkişaf etdirilməsini tələb edir, bu isə yerli əhaliyə də faydalıdır. Bundan başqa, bildiyimiz kimi, bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da kənd əhalisinin şəhərlərə axını, demək olar ki, kənd yerlərində əhalinin azalmasına səbəb olmuşdur. Aqroturizm kəndlilərin həyat tərzini məhşurlaşdırır, kənd yerlərində qalıb yaşamağa marağı artırır. Belə ki, bu zaman kənd əhalisi gələn turistlərə qalmaq üçün öz evlərində, fermalarda və ya bunun üçün xüsusi ayrılmış yerlərdə ev kirayə verirlər. Turistləri yeməklə təmin etmək üçün xüsusi yerlər kafe və yeməkxanalar işə salınır ki, burada yerli əhali arasından işçilər qəbul olunur. Fermer təsərrüfatlar və onların torpaqlarında səyahətlər, istehsal texnologiyaları ilə tanışlıq təşkil olunur.

Turizmin cəlbedici sahəsi olan aqroturizmdə yeni bilik almaq və ya boş vaxtlarını keçirtmək üçün fəaliyyət göstərən ferma və ya digər kənd təsərrüfatı müəssisələrinə ziyarətlər daxildir. Bu, həm ərzaq məhsulları istehsalının dərinliklərinə baxmağa və kənd ab-havasına qatılmağa imkan verir. Bundan başqa, aqroturizmlə məşğul olan insanlar öz istirahətlərinə fermalarda fəal işlərini qataraq regional iqtisadiyyata da öz töfhələrini verirlər. Aqroturist fəaliyyətinin dairəsi çox genişdir və konkret ferma və ya biznesdən asılıdır.

Ölkəmizdə aqroturizmi daha da inkişaf etdirmək üçün müxtəlif amillər nəzərə alınmalıdır. Bunlardan aşağıdakılar üstünlük təşkil edir:

*– kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair müasir texnologiyaların olması;*

*– aqroturizm infrastrukturunun olması və inkişaf etdirilməsi;*

*– insan və maliyyə resurslarının olması;*

*– yerli adət-ənənələrin və mədəniyyətin, ətraf mühitin qorunub saxlanılması və s.*

Qeyd etdiyimiz kimi, aqroturizm həm kənd əhalisi, həm də turistlər üçün sərfəlidir. Fermerlər üçün bu əlavə gəlir əldə etmək, kənd iqtisadiy-

yatını şaxələndirmək və kənd təsərrüfatı işlərinin aparılmasının dayanıqlı üsullarının inkişafına imkanlar verir. Eyni zamanda turistlər kənd təsərrüfatını daha dərindən başa düşmək, təbiətlə əlaqələrini möhkəmləndirmək imkanı qazanırlar.

**Nəticə.** Aqroturizm perspektivli bir sahə kimi ölkəmizdə inkişaf etdirilir. Aqroturizmin inkişafı kənd yerlərinin inkişafına, burada sosial infrastrukturun yaradılmasına müsbət təsir edəcəkdir, kənd əhalisinin böyük şəhərlərə axınının qarşısını alacaqdır. Aqroturizmin inkişaf etdirilməsi Azərbaycan üçün kənd əhalisinin məşğulluğunun və gəlirlərinin dayanıqlılığının artırılmasının vacib amili olduğundan perspektivli sahədir. Tədqiqat zamanı dünya ölkələrinin bu sahədə mütərəqqi təcrübəsi öyrənilmiş, ölkəmizdə bu təcrübənin tədbiq edilməsinin vəziyyəti araşdırılmış və bu sahənin inkişafına maneələr yaradan amillər aşkar edilmişdir.

Aqroturizm sahəsinin özünəməxsus çətinliklərini də qeyd etmək lazımdır. Bunlardan birincisi fermerlərin çoxunun turistləri qəbul etməklə təkbaşına məşğul olmaq istəyidir. Lakin onların bu işi təşkil etmək üçün turizm sahəsində kifayət qədər bilgiləri olmadığına görə çox vaxt büdcələri üçün öz səhvləri üzərində öyrənməli olurlar. Turizm biznesindən olan digər fermerlər isə peşəkarlarla işləməyə qərar versələr də onlarla orta məxrəcə gələ bilmirlər, çünki aqroturun təşkilinə dair tələblər adi kəndlilər üçün əlçatmazdır. Bu çətinlikləri aradan qaldırmaq üçün kənd əhalisi arasında maarifləndirmə işləri aparılmalı, onlara peşəkar turizm sahəsində təcrübəli işçilərin cəlb olunmasının zəruriliyi izah olunmalıdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Лебедко Е.Я. Сельский туризм (учебное пособие для ВУЗов). 3-е издание стер, Санкт-Петербург, Лань, 2022, 260 с.

2. Панюков А.И., Панюкова Ю.Г., Калиничев В.Л. Основы агротуризма (учебник). Москва, магистр, 2025, 240 с.

3. Коробова О.П. Агротуризм как стимул развития сельских территорий. Москва, Scientific Journal “Academia architecture and construction”, 2019, с.99-104.

4. Воротников И.Л. Агротуризм: опыт, проблемы, решения. Материалы Международной научно-практической конференции, Саратов, ФГБОУ ВПО «Сарат. ГАУ», 2012, 182 с.

**B.Abbasova, M.Hasanova, F.Rahimli**
**Development of agrotourism as an additional income source for rural population in Azerbaijan**

**Abstract**

The field of agrotourism is developing worldwide. As in other sectors of the economy, Azerbaijan is not lagging behind in this area and pays significant attention to the development of agrotourism in the country. The article explores the concept of agrotourism, examines the experience of various countries, and discusses the additional incentives it provides to rural communities.

**Б.Аббасова, М.Гасанова, Ф.Рагимли**
**Развитие агротуризма как дополнительного источника дохода для сельского населения Азербайджана**

**Аннотация**

Сфера агротуризма стремительно развивается во всём мире. Как и в других секторах экономики, Азербайджан не остаётся в стороне и уделяет значительное внимание развитию агротуризма в стране. В статье рассматривается понятие «агротуризм», изучается опыт различных стран мира, а также обсуждаются дополнительные стимулы, которые он предоставляет сельскому населению.

**Brilyant Abbasova,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi*
*e-mail: brilyantabbas@gmail.com*
**Mehriban Həsənova,**
*Azərbaycan Dövlət Aqrar Universitetinin baş müəllimi*
*e-mail: mehribanks@mail.ru*
**Fərrux Rəhimli,**
*Ağcabədi Peşə Məktəbinin direktoru*
*e-mail: farukrehimov@gmail.com*